# BİLƏSUVAR:
# İş də var, nailiyyət də

***Qədim Muğan şəhəri Biləsuvar son illər tanınmaz dərəcədə dəyişib, gözəlləşib. Küçə, meydan və xiyabanların abadlaşdırılması, müasir mədəni-sosial obyektlərin inşası, yaşıllıqların artırılması şəhərin hüsnünə yeni rəng qatıb. Hər tərəf göz-könül oxşayır. Elə camaatın həyat səviyyəsi, rifahı da xeyli yaxşılaşıb.***

Biləsuvardakı Heydər Əliyev Mərkəzində ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqda tərəqqi meylləri təqdir edilməklə bərabər, o da vurğulandı ki, qazanılan nailiyyətlərlə kifayətlənmək olmaz, hələ görüləsi işlər də çoxdur. Rayon icra hakimiyyətinin başçısı Mahir Quliyevin rüblük hesabat məruzəsi maraqla qarşılandı. O dedi ki, Nazirlər Kabinetinin iclasında cənab İlham Əliyev iqtisadi islahatların daha sürətlə aparılmasını, regionlarda sənaye zonalarının yaradılmasını və bu işlərdə yerli icra orqanlarının daha böyük fəallıq göstərməsini mühüm vəzifə kimi qarşıya qoymuşdur.

Artıq Biləsuvarda sənaye məhəlləsinin yaradılması məqsədilə 10 hektar torpaq sahəsi ayrılıb. Sənaye məhəllələrində ayrı-ayrı sahələr üzrə emal sexlərinin, zavod və fabriklərin yaradılması üçün konturlar müəyyənləşdirilib. Rayon icra hakimiyyətində sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması və sərmayələrin cəlb edilməsi ilə bağlı müvafiq sərəncamla 30 nəfərdən ibarət xüsusi qərargah yaradılıb, operativliyi təmin etmək məqsədilə qaynar xətt xidməti təşkil edilib. Rayon rəhbərliyi hər bir sahibkarın, torpaq mülkiyyətçisinin yanında olmaqla iqtisadi səmərə verə biləcək layihələrin gerçəkləşməsindən ötrü onlara hər cür köməklik göstərir. Hesabat dövründə rayonda ümumi məhsul buraxılışının həcmi 36,8 milyon manat olub. Bu həcmdə kənd təsərrüfatının payı 8,8, ticarət 19,5, tikintidə 2,3, sənaye 5,4 milyon manat təşkil edib. Əsas kapitala yönəldilən investisiyalar 2,4 milyon manat, pərakəndə əmtəə dövriyyəsi isə 46,5 milyon manat hesablanıb. Adambaşına düşən ümumi məhsul buraxılışının həcmi 371 manat, orta aylıq əməkhaqqı isə 289 manat olub. Yanvar-fevral ayları ərzində ayrı-ayrı sahələr üzrə 400-ə yaxın əlavə iş yeri açılıb.

İcra başçısı bildirdi ki, ölkə Prezidentinin sərəncamı ilə 10 min nəfər əhalinin yaşadığı, 4 yaşayış məntəqəsini birləşdirən 6 kilometrlik Əsgərabad-Muğan-Çaylı avtomobil yolunun tikintisi davam etdirilib. Yolun 2,5 kilometrinə asfalt döşənib, indi son tamamlama işləri aparılır. Hazırda Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət Sosial Müdafiə Fondunun Biləsuvar rayon şöbələrinin, Xırmandalı kənd uşaq bağçası üçün 40 yerlik yeni binanın, Səmədabad kəndində Heydər Əliyev parkının tikintisi, Əsgərabad kənd tam orta məktəbinin və rayon mərkəzi xəstəxanasının əsaslı təmir işləri davam etdirilir. Biləsuvar şəhərinin içməli su sisteminin yenidən qurulması istiqamətində işlər başa çatdırılıb.

Ötən dövr ərzində rayonda əhalinin təbii qazla təmin edilməsi istiqamətində əsaslı işlər görülüb və artıq bütün yaşayış məntəqələri mavi yanacaq alır. İşıq təchizatı və infrastrukturun yenilənməsi üzrə də rüb ərzində işlər reallaşıb. Ayrı-ayrı yaşayış məntəqələrində 130 ədəd elektrik dirəyi qoyulub, 9 ədəd elekrtik transformatoru təmir edilib, 5,5 kilometr hava verilişi xətti dəyişdirilib. Elektrik şəbəkəsi üçün yeni inzibati bina tikilərək istifadəyə verilib.

M.Quliyev aqrar sahənin inkişafından danışaraq dedi ki, Biləsuvar respublikamızın iri kənd təsərrüfatı rayonu olduğu üçün iqtisadiyyatının əsasını da bu sahənin gəlirləri təşkil edir. Ona görə də rayon rəhbərliyi bu sahədə real nəticələrə nail olmağı vacib sayır. İlk növbədə rayona iqtisadi cəhətdən böyük səmərə verən, əhalinin məşğulluğunu geniş təmin edən pambıqçılığın tarixi şöhrətini qaytarmaq üçün müvafiq addımlar atılıb. Hazırda pambıq əkinlərinin genişləndirilməsi məqsədilə ciddi işlər aparılır. Bu il rayonda 6 min hektar pambıq əkiləcək. Hazırda mülkiyyətçilər tərəfindən 4700 hektardan çox ərazidə pambıq əkini üçün zavodlarla müqavilələr bağlanıb. Rayon icra hakimiyyəti pambıqçılığın dirçəldilməsini gündəlik nəzarətdə saxlayır. Taxıl əkini də diqqətdədir. Bu ilin məhsulu üçün ötən payız 24,2 min hektar taxıl əkini aparılıb ki, bunun da 11 min hektarı buğda, qalanı arpadır. Ötən illə müqayisədə taxıl əkini 1,4 min hektar çox olub. Hesabat dövründə iribuynuzlu mal-qara 41,1 min başa, davar isə 139,4 min başa çatdırılıb.

Məruzədə vurğulandı ki, rayonda təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişafı ölkə Prezidenti cənab İlham Əliyevin, Heydər Əliyev Fondunun qayğısı ilə əhatə olunub. Biləsuvarda əhalinin üçdə-bir hissəsini və daha fəal qismini təşkil edən gənc nəslin ideya-siyasi və hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi də ən çox diqqət yetirilən sahələrdəndir. Son vaxtlar rayon gənclər və idman idarəsinin təşəbbüsü ilə keçirilən bir sıra tədbirlər gənclər və yeniyetmələr tərəfindən razılıqla qarşılanıb. Fərəhlidir ki, biləsuvarlı gənclər hərbi xidmətə böyük həvəslə yollanır, Vətən qarşısında borclarını şərəflə yerinə yetirirlər.





Məruzə ətrafında müzakirələr işgüzar ruhda keçdi. Əsas diqqət qarşıda duran mühüm vəzifələrə yönəldildi.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***